# Azərbaycan - Koreya münasibətləri

**Qısa tarixi məlumat:**

Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında diplomatik münasibətlər 23 mart 1992-ci ildə qurulmuşdur. Koreya Respublikasının Azərbaycan Respublikasındakı səfirliyi 04 mart 2006-cı ildə, Azərbaycan Respublikasının Koreya Respublikasındakı səfirliyi 14 mart 2007-ci ildə təsis edilmişdir. Hazırda, Azərbaycan Respublikasının Koreya Respublikasındakı müvəqqəti işlər vəkili Rəmzi Teymurovdur.

**Yüksək səviyyəli qarşılıqlı səfərlər və görüşlər:**

**Dövlət başçıları:**

**2006-cı il 10-12 may** - KR Prezidenti Roh Mu-hyun Azərbaycana rəsmi səfər etmişdir.

**2007-ci il 23-25 aprel** - AR Prezidenti İlham Əliyev Koreyaya rəsmi səfər etmişdir.

**2012-ci il 25-27 mart** - AR Prezidenti İlham Əliyev Koreyaya işgüzar səfər etmişdir (Seul Nüvə Təhlükəsizliyi Sammiti)

**Hökumət başçıları:**

**2008-ci il 18-20 may** - KR-in Baş naziri Han Seunq-sun Azərbaycana rəsmi səfər etmişdir.

**Xarici İşlər Nazirləri:**

**2005-ci il 29-30 noyabr** - AR-in xarici işlər naziri Elmar Məmmədyarov Koreyaya rəsmi səfər etmişdir.

**2010-cu il 14-15 dekabr** - AR-in xarici işlər naziri Elmar Məmmədyarov Koreyaya rəsmi səfər etmişdir.

**Parlamentlərarası əlaqələr:**

**2007-ci il 4-6 sentyabr** - AR Milli Məclisinin Sədri Oqtay Əsədov Koreyaya rəsmi səfər etmişdir.

**2012-ci il 12 yanvar** - KR-in Milli Assableyasının Sədri Park Hi-tae Azərbaycana rəsmi səfər etmişdir.

Milli Məclisdə Azərbaycan-Koreya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri millət vəkili Malik Həsənovdur.

**Humanitar sahədə əməkdaşlıq:**

**Mədəni və humanitar tədbirlər:**

**Səfərlər:**

**26-30 iyun 2005-ci ildə** Azərbaycanda Koreya mədəniyyəti günləri keçirilmişdir.

**17-20 oktyabr 2005-ci ildə** Azərbaycanda Koreya filmləri həftəsi keçirilmişdir.

**26-30 iyun 2007-ci ildə** Koreyada Azərbaycan mədəniyyət günləri keçirilmişdir.

**5-10 aprel 2014-cü ildə** AR Milli Məclisinin Sədr müavini Z. Əsgərovun başçılıq etdiyi nümayəndə heyəti KR-ə səfər etmişdir.

**19 may 2014-cü ildə** Azərbaycan Respublikasının fövqəladə hallar naziri K. Heydərov Koreya Respublikasında səfərdə olmuş, səfər çərçivəsində Koreya Respublikasının Fövqəladə Halların İdarə edilməsi üzrə Milli Agentliyin administratoru Nam Sanq-ho və Dünya Taekvando federasiyasının prezidenti Çunqvon Ço ilə görüşmüşdür.

**Müqavilə-hüquq bazası:**

Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında 46 sənəd imzalanmışdır.

*Son yenilənmə tarixi: 18.09.2014*